

# "NOBEL QARDAŞLARININ QƏNİMİ"

# *Şəmsi Əsədullayev*

O, 1840-cı ildə Bakının Əmircan kəndində anadan olmuşdur. Cavanlıqda kənddə atasının əkinbiçininə kömək edir, araba ilə biçilmiş taxılı daşıyır, xırman salır, bir sözlə, hər şeydə atasına kömək edirdi. Bu illərdə əmircanlıların əsas taxıl yerləri Suraxanı torpaqlarında idi. XIX əsrin əvvələrində neft sənayesinin inkişafı ilə əlaqədar olaraq, bu torpaq sahələrinin mühüm bir hissəsi Suraxanıda neft çıxarılması və kerosin emalı ilə məşğul olan rus tacirlərindən Kokorev və Qubonin tərəfindən ucuz qiymətə alınmışdı. Onlar Suraxanıda, Atəşgahın yanında kerosin emal edən bir zavod tikdirmişdilər. Torpaqsız qalan Suraxanı və Əmircan kəndinin sakinləri neft mədənlərində işləməyə məcbur oldular. Şəmsi Əsədullayev də əkinçiliyi buraxaraq, neft işinə başlayır. O, 1860-cı ildə Kokorevin yanında işlər müdiri vəzifəsinə yüksələ bilir. Bir müddətdən sonra Əsədullayev neft və duz podratçılığı ilə məşğul olur. 15 il müddətində xeyli qazanc əldə etdikdən sonra podratçılığı buraxaraq, kerosin zavodu açır. 1890-cı illərdə neft işi ilə məşğul olan bir neçə nəfərlə birlikdə şirkət qurur. Əldə edilən neftin Rusiya bazarlarına çıxarılması onu daha çox düşündürürdü. Nəhayət, 1891-ci ildə neftin Xəzər vasitəsilə daşınması sahəsində, Bakı neft kapitalistləri içərisində ilk dəfə olaraq, buxar şxunu (iki və üç dorlu yelkənli gəmi) sifariş verir. 1895-ci ildə təzə aldığı torpaq sahələrindən birində neft fontan vurur. Fontan 56



Həyat yoldaşı
**Meyransa Əsədullayeva**

gün davam edir. Bu yataq hər gün 1 milyon 600 min pud neft verirdi. Bu, Bakı neft sənayesi tarixində ən məşhur fontanlardan biri idi.

Şəmsi Əsədullayevin adı həmişə Nobel qardaşlarının adı ilə qoşa çəkilirdi.

Əsədullayevin neft hasilatı artdıqca onun Volqaboyu şəhərlərdə - Moskvada, Polşada, habelə Orta Asiyada, İranda neft anbarlarının sayı artırdı. Xəzər dənizi sahillərinə və Volqaboyu şəhərlərə öz gəmilərində neft daşıtdırıb satdırardı. Camaat arasında Şəmsi Əsədullayevə "Nobel qardaşlarının qənimi" deyirdilər. Çünki bütün Rusiyada, Türküstanda, İranda, hətta Finlandiyada belə Nobellərin dükanı və kontoraları ilə üzbəüz, ya da ki, yanaşı kontor və dükan açıb Nobellərdən ucuz qiymətə neft satır və ona mane olurdu. Oktyabr ayının axırlarında Volqada naviqasiya bağlananda Bakıda neftin qiyməti xeyli aşağı düşürdü. Böyük neft sahibkarları, o cümlədən Şəmsi bəy də xırda mədən sahiblərindən nefti ucuz alıb anbarlara vurur, yazda naviqasiya açılanda Rusiyaya daşıtdırardı.

Şəmsi Əsədullayev neftin ecazkar qüdrətindən milyonçu olur. O həm neft mədəni, həm də neft daşıyan dəniz və çay donanmasının sahibi olmuşdu. Şəhərin mərkəzində əsas fasadı Qoqol küçəsinə, digər iki yan fasadlarının biri Gimnaziya (Tolstoy) küçəsinə, digəri Karantin (Həzi Aslanov) küçəsinə baxan əzəmətli bina tikdirir.

Hələ 1880-ci ildə Volqa çayında və Xəzər dənizində gəmiçiliklə məşğul olan gəmiçilik şirkəti- "Qafqaz və Merkuri", Bakıda sərnişin limanında yeni elektrik fənərləri quraşdırmışdı. Bu fənərlər axşamdan sübhə qədər düzgün, tutqun rəngli işıqla yanırdı. Bu da şəhər əhalisində və bura gələn qonaqlarda xüsusi bir heyranlıq doğururdu. "Qafqaz və Merkuri" şirkətinin reyslərinə sərnişin çoxalmış, liman isə şəhər sakinlərinin ən sevimli gəzinti yeri olmuşdu. Bu zaman Bakı neft sənayesinin məşhur və böyük iş adamlarından olan Şəmsi Əsədullayev də limanın elektrikləşdirilməsinə biganə qalmadı. O, şəxsi elektrik stansiyasına sahib oldu və ona xidmət üçün xaricdən mütəxəssislər dəvət etdi. Elektrik stansiyası sahibkarın Bakının mərkəzində yerləşən çoxmərtəbəli evinin işıqlandırılması üçün də xidmət göstərirdi. Xarici sərmayə ilə yanaşı, yerli sərmayənin payı Şəmsi Əsədullayev və onun kimi digər Bakı milyonçularının sayəsində artırdı.

Şəmsi Əsədullayev, Musa Nağıyevlə birlikdə 1896-cı ildə "Bö-



Oğlu
**Mirzə Əsədullayev**



Qızı
**Sara Əsədullayeva**



Qızı
**Ağabacı Əsədullayeva**



Qızı
**Xədicə Əsədullayeva**







yük Puta” adlı yerdə Məşədi Əbdülrəhman Məşədi Əliqulu oğluna məxsus 242 desyatinlik torpaq sahəsini satın alıb, neft mədənlərini salmışdılar. Ş.Əsədullayev 1900-cü ildə, 7.3 milyon pud neft çıxarmış, 11.5 milyon pud neft məhzulları satmışdır. 1904-cü ildə Ş.Əsədullayev və İbad bəy Tahirov Moskvada, Zakaspidə və İranda neft məhzulları satışı üzrə müqavilə bağlamışdır. 1907-ci ildə onun Ramanadakı mexaniki təmir emalatxanasında, qazan emalatxanasında, elektrik stansiyasında 466 nəfər, neft mədənində isə 16 nəfər fəhlə işləyirdi.

Bakı kəndlərindən Ramanada dərin iz qoyan, bu gün də kənd camaatı tərəfindən tez-tez yad edilən şəxslərdən biri də Azərbaycan milyonçusu Şəmsi Əsədullayevdir. Ramananın neftlə zəngin torpağına kapital qoyan yerli burjuaziyanın ilk nümayəndələrindən olan Ş.Əsədullayev vaxtı ilə bu kənddə böyük işlər görüb. Kəndə yatırım qoyan milyonçu yerli əhalini işə cəlb etmiş, neft biznesi ilə bir sıra işlər görmüş, kənddə müxtəlif səpkili tikililər inşa etdirmişdir. Onun bir zamanlar tikdirdiyi binalar bu gün də kənd camaatı arasında “Əsədullayevin evləri”, “Əsədullayevin uşaqlarının evləri” adlanan milyonçuya aid fəhlə yataqxanaları Ramana qalasının arxasında mövcuddur. Neft milyonçusunun kəndin neft yataqlarına qoyduğu investisiya və burda gördüyü işlər neft tarixi ilə zəngin olan ərazidə peşəkar neftçilərin yetişməsində az rol oynamayıb.



Şəmsinin Bakıda bir müsəlman arvadı, iki oğlu (Mirzə, Əli) və üç qızı (Sara, Xadicə və Ağabacı) vardı. İkinci dəfə Şəmsi Mariya Petrovna adlı bir rus qadınla ailə qurur və 1903-cü ildə Moskvaya köçür.

Şəmsi Əsədullayev Peterburqda Neva çayı sahilində, “Qış sarayı” yaxınlığındakı məhəllədə əzəmətli bina ucaltmışdı. Moskvada içərisində çarhovuz və oranjereya olan təmtəraqlı mülk almışdı. O, hər il Avropa şəhərlərinə, yaylaqlarına istirahətə, səyahətə gedirdi. Peterburqda və Moskvada bir neçə yerdə mülklər tikdirir, xeyriyyə işləri ilə məşğul olurdu.

Əsədullayev, demək olar ki, bütün qış aylarını Moskvada və Peterburqda keçirirdi. Bakıda onun neft işləri ilə böyük oğlu Mirzə



Əsədullayev məşğul olurdu. Volqada naviqasiya açılan kimi Bakıya gələr və bir neçə ay müddətində anbarlarda toplanmış nefti Rusiyaya öz müştərilərinə göndərməyə başlayardı.

Şəmsi Əsədullayevin Mərdəkanda əzəmətli bir bağı vardı. Bu bağ özünün çox böyük sahəsi və əzəmətli tağvarı qapısı ilə fərqlənirdi. Bağ XIX əsrin axırlarında salınmışdı. Sovet hökuməti bu bağı müsadirə edib, sanatoriyaya çevirmişdi. Əsədullayev 1913-cü il 21 apreldə Yaltada günvurmadan 72 yaşında vəfat etmişdir. Onun meyidi Bakıya gətirilərək dəfn edilmişdir. Əsədullayevin böyük oğlu Mirzə Musa Nağıyevin qızı, kiçik oğlu Əli isə H. Z. Tağıyevin Leyla adlı qızı ilə evlənmişdi. Qızı Sara atasının işlər müdiri Zal Həsənovun arvadı olub.

Bu yaxınlarda Paris şəhərində vəfat etmiş azərbaycanlı yazıçı Ümmülbanin Mirzə Əsədullayevin qızıdır. Əsərlərini fransız dilində yazırdı. O, iki milyonçu babanın - Şəmsi Əsədullayevlə Musa Nağıyevin nəvəsidir.

Şəmsi Əsədullayevin nəsil davamçılar, xüsusən, oğlu və nəvələri Azərbaycandan kənarda yaşamalarına baxmayaraq, yazıb-yaratmış, elmi, ictimai işlərlə məşğul olmuşlar. Zəmanələrinin tanınan, seçilən şəxslərindən olan bu ziyalı insanlar Azərbaycanı hər yerdə uğurla, ləyaqətlə təmsil etməyə çalışırmışlar.

***Ülkər Mirzəyeva***